AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Kapital Bank
BİRİNCİ BANK

RESPUBLİKA FƏNN OLİMPİADALARI
2020-2021
Respublika mərhələsinin yarımfinal turu

# Azərbaycan dili və ədəbiyyat
# yuxarı yaş qrupu (10-11-ci siniflər)

Ad____________________ Soyad ____________________

*İmtahan müddəti 180 dəqiqədir.
*1-10-cu suallar 3 bal, 11-20-ci suallar 4 bal, 21-30-cu suallar 5 bal ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
*Olimpiadanın nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!

10.03.2021

**1. Tələffüz şəklində verilmiş hansı sözü həm *isim+qoşma*, həm də *çıxışlıq hallı isim* kimi düşünmək olar?**

A) [Sənnən] savayı dostum yoxdur.
B) Bu topu [dosdumnan] almışam.
C) Əli meşəyə [uşaxlarnan] getmişdi.
D) [ Gözəllix'nən] öyünmək olmaz.
E) Bacım [babamnan] kəndə gedəcək.

**2. Hansı cümlələrdə işarələnmiş *–lar*² şəkilçisi ixtisar olunsa, qrammatik norma pozulmaz?**

1. Kəndli*lər* torpağa qulluq edirdilər.
2. Qonşu*lar* evə baxmaq üçün tələsirdilər.
3. Meşəyanı sahə*lər* əkin üçün yararlıdır.
4. Ayağı altında xışıldayan saralmış yarpaq*lar* yaddaşını təzələyirdi.
5. Sürünün gəlişini duyan quzu*lar* ağız-ağıza verib mələşirdilər.

A) 2, 4, 5 B) 1, 3, 4 C) 2, 3, 4
D) 1, 2, 5 E) 1, 3, 5

**3. M. Füzulinin "*Leyli və Məcnun*" poemasında bu sözləri Məcnuna hansı obraz deyir?**

*Tut Kəbəyə ruy, taət eylə!*
*Təmkinü ədəb riayət eylə!*
*Təzim şəraitin əda qıl!*
*İxlası dürüst edib dua qıl!*

A) Növfəl B) Məcnunun atası
C) Zeyd D) Leylinin atası
E) Məcnunun anası

**4. Əvəzliklə bağlı *doğru* fikirlər hansıdır?**

1. Şəxs əvəzlikləri əşyanın adını bildirmir, onu əvəz edir.
2. Defislə yazılan qeyri-müəyyən əvəzlik yoxdur.
3. Bütün qeyri-müəyyən əvəzliklər cəmlənir.
4. *Elə, belə* əvəzlikləri qrammatik omonimliyə malikdir.
5. *Bəzi, öz* əvəzlikləri yalnız III şəxsin mənsubiyyət şəkilçisini qəbul edir.

A) 1, 2, 4 B) 3, 4 C) 2, 3, 5
D) 1, 3, 4 E) 2, 5

**5. "*Baxıldıqca bəyənilən*" birləşməsinin tərəflərinin morfoloji təhlili ilə bağlı *yanlış* fikri müəyyən edin.**

A) Tərəflər təsriflənməyən feillə ifadə olunub.
B) Hər iki sözdə bir leksik, bir qrammatik şəkilçi vardır.
C) Hər ikisi təsirsiz feildir.
D) Hər iki feil eyni qrammatik məna növündədir.
E) Hər iki söz təsdiqdədir.

**6. Verilmiş nümunə hansı sxemə uyğundur?**
(Durğu işarələri buraxılmışdır)
*Gözlərini pəncərədən ayırmadan Mən dedi kimin mənə dost, kimin də düşmən olduğunu özüm yaxşı bilirəm.*

A) "V, -m,-v". B) M: "V"
C) M: "V,-m,-v". D) M: "V",-m.
E) M: "V,-m,-v,-m".

**7. M.F. Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyasındakı obrazlarla bağlı uyğunsuzluğu müəyyən edin:**

1. Yenilik, elm, maarif, inkişaf idealının təmsilçisi – Şahbaz bəy
2. Obrazlar arasındakı konflikt - Məstəli şah <-> Müsyö Jordan
3. İlk maarifçi qadın obrazlarından biri – Şərəfnisə
4. Böyük gələcəyi olan maarifçi ziyalıları təmsil edir - Müsyö Jordan
5. Şahbaz bəydən də höcət olan – Şəhrəbanu
6. "Alimliyini" sübut etmək niyyəti ilə başqa dilə müraciət edən – Məstəli şah

A) 2, 5, 6 B) 1, 3, 4 C) 2, 4, 6
D) 2, 3, 4 E) 3, 4, 5

**8. Doğru olmayan hökmləri müəyyən edin:**

*1. Hər üç ədəbi növdə yazmaq ənənəsi ədəbiyyatın bütün dövrlərində mövcud olmuşdur.*
*2. Qədim və Orta dövr ədəbiyyatında yazılmış poemaların hamısı formaca məsnəvi janrındadır.*
*3. XX əsrin əvvəllərində mövcud quruluşu dəyişmək ədəbiyyatımızda əsas ideal idi.*
*4. XVIII əsr ədəbiyyatında ənənəçilik özünü daha çox göstərirdi.*

*5. XIX əsrdə satira aşıq şeirində də özünü göstərmişdir.*

A) 1, 3, 5 B) 1, 2, 5
C) 2, 3, 4 D) 2, 4, 5
E) 1, 2, 4

**9. Nümunələrdən birində yönlük halda olan söz çıxışlıq halın da sualına cavab verə bilir:**

A) İnsan nə qədər çox bilsə də, yenə dostun məsləhətinə möhtacdır.
B) Məni sarsıtdı unutdum adını,
Mənə, gəl, sorma o solğun qadını. (Ə. Cavad)
C) Qəbul eylə torpağına,
Qoy qoynunda ölüm, Vətən. (Z. Əziz)
D) Cahandar ağaya bəlli oldu ki, Ağayara kömək edən var. (İ. Şıxlı)
E) Ağaclar yaza çiçəkləyər.

**10. Altından xətt çəkilmiş sözlər haqqında doğru olanları müəyyən edin**:

*1. Əli qardaşını xaricdə oxudur.*
*2. İnsanı bəzən xoş duyğular və düşüncələr yaşadır.*

1. Hər iki söz indiki zamandadır.
2. Hər iki sözdə şəxs sonluğu işlənmişdir.
3. Hər iki söz düzəltmədir.
4. Sözlərin ikisi də feildən düzəlmişdir.
5. İkisinin də kökü feildir.

A) 1, 3, 5 B) 2, 3, 4
C) 1, 2, 5 D) 1, 3, 4
E) 2, 4, 5

**11. Hansı cümlədə vergüldən düzgün istifadə olunmayıb?**

A) Mən gələnləri, yəni təzə şagirdləri tanımırdım.
B) Ona görə oxudum ki, daha yaxşı yadımda qalsın.
C) Madam ki, deyilən şərtlərlə razıdır, demək, işə götürmək olar.
D) Demək, sən hər şeyi qabaqcadan bilirdin.
E) Ey, sarvan, dayan, yol uzun, zaman qısadır!

**12. Cümlələri məntiqi ardıcıllıqla düzərək mətni bərpa edin.**

(1) Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.
(2) Biz öz milli dəyərlərimizlə fəxr etməliyik.
(3) Çünki bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır.
(4) Formalaşmış milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz...
(5) Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq.

A) 2, 1, 3, 5, 4 B) 1, 4, 2, 3, 5
C) 4, 1, 2, 3, 5 D) 2, 3, 4, 5,1
E) 3, 4, 2, 1, 5

13. *“Uşaqların bəzisi dərsə gəlməmişdi”* – **cümləsindən *“bəzisi”* sözü çıxarılsa, hansı dəyişikliklər baş verər?**

1. Mübtədanın ifadə vasitəsi dəyişər.
2. Mənsubiyyət şəkilçili sözün sayı çoxalar.
3. Cümlə üzvlərinin sayında dəyişiklik olar.
4. Yiyəlik hallı sözü təsəvvür etmək olar.
5. Norma pozuntusu baş verər.

A) 1, 4, 5 B) 2, 3, 4
C) 1, 3, 5 D) 3, 4, 5
E) 1, 2, 4

**14. Nümunə ilə bağlı *səhv* fikirləri seçin:**

*Yığıb gözlərimə boyalarını,*
*Aranda bəzəyəm röyalarını.*
*Əlimlə oxşayıb qayalarını*
*Yanında daş olub qalam, a dağlar.*
(E.Borçalı)

1. *Yanında* sözündə *-ı* mənsubiyyət şəkilçisi, *n* bitişdirici samitdir.
2. *Yığıb* sözündə *-ıb* feili bağlama şəkilçisidir.
3. *Bəzəyəm* sözündə *-əm* şəxs sonluğudur.
4. *Əlimlə* sözündə *-im* mənsubiyyət şəkilçisidir.
5. *Qalam* sözündə *-m* şəxs sonluğudur.

A) 2, 4 B) 3, 5 C) 1, 3
D) 1, 5 E) 2, 5

**15. Uyğunluğu müəyyən edin:**

*1.“Şəngülüm, Şüngülüm, Məngülüm” nağılı xatırlanır.*

*2. Dastan qəhrəmanı Qaraca Çoban xatırlanır.*

A) 1 - M.İbrahimov. “Gələcək gün”;
2 - Mir Cəlal. “Açıq kitab”

B) 1 - Anar. “Keçən ilin son gecəsi”;
2 - M.Hüseyn. “Odlu qılınc”

C) 1 - M.Şəhriyar. “Heydərbabaya salam”;
2 - İ.Hüseynov. “Zəhər”

D) 1 - Elçin. “Talvar”; 2 - S.Vurğun. “Vaqif”

E) 1 - Ə.Kürçaylı. “Vətən”; 2 - S.Əhmədli. “Dərs”

**16. Sxemin doğru olması üçün hansı dəyişikliyin aparılması vacibdir?**

| | |
|---|---|
| **qoşma** | M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, M.M.Şükuhi |
| **qəzəl** | M.V.Vidadi, Q.Zakir, S.Ə.Şirvani |
| **gəraylı** | M.V.Vidadi, Q.Zakir, M.M.Şükuhi |
| **müxəmməs** | M.V.Vidadi, Q.Zakir, S.Ə.Şirvani |
| **bayatı** | M.V.Vidadi, M.P.Vaqif, Sarı Aşıq |

A) M.V.Vidadinin adı “bayatı” yazılan hissədən çıxarılmalıdır.

B) Q.Zakirin adı “müxəmməs” yazılan hissədən çıxarılmalıdır.

C) M.M.Şükuhinin adı “gəraylı” yazılan hissədən çıxarılmalıdır.

D) M.P.Vaqifin adı “bayatı” yazılan hissədən çıxarılmalıdır.

E) S.Ə.Şirvaninin adı “müxəmməs” yazılan hissədən çıxarılmalıdır.

**17. *Yanlış* olanları müəyyənləşdirin:**

| Doğru | Yanlış |
|---|---|
| 1. nəğd | nağd |
| 2. magistir | magistr |
| 3. tükürpərdən | tükürpədən |
| 4. əskinaz | əsginas |
| 5. perfomans | performans |
| 6. itgin | itkin |
| 7. təngnəfəslik | tənginəfəslik |
| 8. intervyu | intervü |

A) 1,4,5,6,7 B) 2,3,5,7,8 C) 1,2,4,6,8
D) 2,3,4,5,6 E) 1,3,5,6,7

**18. Verilmiş nümunələrin ortaq xüsusiyyəti:**

*1. Pulu verdiyim adam yadıma düşmüşdü ki, həmin şəxs düz qarşımda ayaq saxladı.*

*2. O adam düz qarşımda ayaq saxladı ki, mən həmin adama pul vermişdim.*

A) Əvvəl budaq, sonra baş cümlə işlənmişdir.

B) Bağlayıcı baş cümlədədir.

C) Əvvəl baş, sonra budaq cümlə işlənmişdir.

D) Budaq cümləni baş cümləyə bağlayan əlaqə vasitəsi eynidir.

E) Tərkib hissələri müxtəsər sadə cümlələrdir.

**19. N.Gəncəvinin “İskəndərnamə” poeması ilə bağlı tərtib olunmuş səbəb-nəticə cədvəlində hansı rəqəmlərin yeri dəyişilsə, uyğunluq bərpa olar?**

| | |
|---|---|
| Feyləqus Daraya bəxşişlər göndərir. | 1. İskəndər mərdliyin yolunu öyrənir. |
| Feyləqus öz ölkəsində zülmə son qoyur. | 2. Dara ona düşmən kəsilir. |
| İskəndər Daradan taxt-tac alıb böyük hökmdar olur. | 3. Böyük şəhərlər salınır. |
| Niqumaş İskəndərə vəsiyyət etdi. | 4. Ərəstu İskəndərin vəziri oldu. |
| Nüşabə süfrəyə almaz, yaqut, dürr düzür. | 5. Düşmənçilik aradan götürülür. |

A) 1-3 B) 2-3 C) 3-5 D) 1-5 E) 4-5

**20.** “Anamın kitabı” (C.Məmmədquluzadə) tragikomediyasından verilən parçalardan hansılarında **uyğunsuzluq** var?

1. “... doğrusu mən sənin dilini qanmıram”, – Rüstəm bəy Mirzə Məhəmmədəliyə deyir.

2. “Bəlkə, sən də elə qəribə bir söz bilirsən ki, bizim yadımıza düşməmiş ola”, – Rüstəm bəy Zəhra bəyimə deyir.

3. “Dadaş, mən söylədiyim “Faust”dan türk dilinə tərcümədir”, – Səməd Vahid Rüstəm bəyə deyir.

4. “... adamlar niyə hərəsi bir yana gedir? Niyə hamısı bir yerə getmir?” – Zəhra bəyim Qənbərə deyir.

5. “Sən sözünü de, əgər sənin sözün haqdır, gərək onu deməkdən çəkinməyəsən”, – Rüstəm bəy Gülbahara deyir.
A) 2, 3, 5 B) 1, 2, 3 C) 1, 3, 4
D) 2, 4, 5 E) 1, 4, 5

21. ***Səhv*** fikirləri seçin.
1. M.Füzuli “Leyli və Məcnun” poemasının girişində daha əvvəl bu mövzuda əsər yazan N.Gəncəvini yad etmişdir.
2. B.Vahabzadə “İstiqlal” poemasında daha əvvəl yazdığı “Şəhidlər” poemasının adını çəkmişdir.
3. Mir Cəlal “Açıq kitab” romanında acı sınaqlara tuş gələrək həlak olan azyaşlı Baharın ölümünə də işarə etmişdir.
4. “Koroğlu” dastanının “Həmzənin Qıratı qaçırması” qolunun başlanğıcında “Durna teli” qolunda əsas hadisələrin bir qisminin baş verdiyi yer xatırlanmışdır.
5. R.Rza “Qızılgül olmayaydı” poemasında “Çinar” şeirində olduğu kimi, insanlara çinar ömrü yaşamağı arzulamışdır.
A) 2, 3 B) 3, 5 C) 1, 4 D) 4, 5 E) 1, 2

**22. Verilmiş aşıq şeirlərindən biri spesifik forma xüsusiyyətinə görə digərlərindən fərqlənir:**
A) *Qüdrətdən ucalan zülm ilə enməz,*
*Haqdan yanan çıraq bad ilə sönməz.*
*Dost dostdan inciyər qəlbində dönməz,*
*Olar bir az ərki-naz arasında.*

B) *Şəriət oxuyan, təriqət bilən,*
*Haqlıq eyləyirsən, haqq dinə bax-bax!*
*Qalmayıb dünyada “mənəm” deyənlər,*
*Həzrət Süleymanın taxtına bax-bax!*

C) *Ələsgər də eşq içində qaladı,*
*Şirin canın ataşına qaladı.*
*Ər iyidin canı getsə, qala adı,*
*Nakəslərin dəhr içində nə də adı!*

D) *Xəlləqul-aləmin budur qərarı,*
*Qış olmasa, bahar dolana bilməz.*
*Ər kişi vətəndən düşsə aralı,*
*Ah çəkib saralar, dolana bilməz...*

E) *Mən qurban eylərəm yara canımı*
*Götürüb doğraya, yara canımı.*
*Alıb təpə-dırnaq yara canımı,*
*Bilmirəm dərmanı ay ana, ana.*

**23. Hansı nümunələrdə ismin üç müxtəlif halında olan isimlər işlənmişdir?**
1. Keçir dərələrdən bulud parçası
Üzüm bağlarına kölgə tökülür. (S.Tahir)
2. Şəhər saldı suda insan. (Ə.Kərim)
3. Sonra söylədim ki, baharda sənə
Bir dəstə bağlaram yaz güllərindən. (Ə.Kürçaylı)
4. Tufan istəyirəm yandıra bilsin,
Könlümün qaralan ocaqlarını. (B.Vahabzadə)
5. Sənət çələngini gəzdir başında
Kim buna xor baxsa, qəlbi qaradır. (İ.Səfərli)
A) 2, 3 B) 2, 5 C) 1, 3
D) 1, 4 E) 4, 5

**24. Doğru və yanlışları müəyyən edin:**

| No | | Doğru | Yanlış |
|---|---|---|---|
| 1 | Hasan paşa Qıratı qaçırmağı müqabilində qızı Dona xanımı Keçəl Həmzəyə verməyə boyun olsa da, axırda sözünə əməl etmir. | | |
| 2 | Kürdoğlu (Həsən) Koroğlunu iki dəfə yıxıb başını kəsmək istəməsə də, Koroğlu onu bir dəfə yıxıb başını kəsmək istəyir. | | |
| 3 | Koroğlu dəlilərindən Bəlli Əhmədi İstanbula göndərir ki, Nigar xanımdan xəbər öyrənsin. | | |
| 4 | Koroğlu ahıl vaxtlarında tüfənglə ilk dəfə tanış olanda misri qılıncı belindən açıb yerə atır. | | |
| 5 | Paşalara, xanlara qan udduran qoç Koroğlu Ələmqulu xanla dost idi. | | |

A) Doğru – 1, 4, 5; Yanlış – 2, 3
B) Doğru – 4, 5; Yanlış – 1, 2, 3
C) Doğru – 2, 3; Yanlış – 1, 4, 5
D) Doğru – 2, 4, 5; Yanlış – 1, 3
E) Doğru – 2, 4; Yanlış – 1, 3, 5

**25. Hansı sözün izahı düzgün verilməyib?**
A) *həcər* – daş
B) *tühaf* – gülünc, təəccüblü
C) *süxəndan* – söz ustası, yaxşı danışan
D) *fenomen* – müstəsna, qeyri-adi şəxsiyyət
E) *faiq* – yazıq, müti

**26.** *I. Bütün sənədləri ... soyadlı bir vəkil imzalamışdı.*
*II. Nə qədər şikayət olar: yorulmuş, yata bilməmiş, kədərlənmiş...*
*III. İndi sənə bir söz deyərdim, amma...*
*IV. Həmin hərbi hissə ... şəhərinin yanında yerləşirdi.*
*V. Toya bizi çağırmadınız ki ...*
**Yuxarıdakı cümlələr üç nöqtənin (...) istifadə məqamlarına görə iki-iki qruplaşdırılsa, hansı cümlə bu qruplaşmanın kənarında qalar?**
A) I B) II C) III D) IV E) V

**27. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" – hansı fərman əsasında yaradılmışdır?**
A) "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" – 18 iyun 2001-ci il
B) "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" – 9 avqust 2001-ci il
C) "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" – 01 noyabr 2018
D) "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" – 09 aprel 2013
E) "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı – 2 yanvar 2003-cü il

**28.** S.Ə.Şirvaninin "Guş qıl" müxəmməsindən seçilmiş misralardan hansının izahı ***səhv*** verilmişdir?
A) Pənbeyi-qəfləti çək sən dəxi can guşindən,
Ta ki əsrari-nihanə olasan bərxurdar...
***İzahı:*** *Qəflət pambığını qulağından çıxar ki, gizli sirlərə bələd olasan.*
B) Çəkmə aqilsən əgər, dəhri-müxalif qəmini,
Şurə gəl, nəğmə ilə çək qəmi-dünyayə həsar...
***İzahı:*** *Ağlın varsa, dünya qəmini çəkmə, nəğmədən təsirlənərək dünyadan gələn qəmlərin qarşısını kəs.*
C) Zahida, tanrıya bax, məclisi-irfandır bu,
Tarı əsbabi-mənahi demə, böhtandır bu...
***İzahı:*** *Ey zahid, tanrıdan qorx, irfan məclisindəyik, tarı qadağan olunmuş alət deyib böhtan atma.*
D) Qoymaz ol tarı müğənni niyə ağuşindən,
Düşməz ol xanəbərəndazlərin duşindən...
***İzahı:*** *Tar sinədən enmədikcə, yəni ifa olunduqca insanlar səsin sehrinə dalıb evə getmək barədə düşünmürlər.*
E) Nədir ol xüşk olan çubdə bu naleyi-zar
Ki, sədasından onun qarət olur səbrü qərar...
***İzahı:*** *Bu quru taxtadan çıxan ah-zar nədir? Onun sədasından insanın səbri-qərarı qalmır...*

**29. Hansı bənddə bədii təsvir və ifadə vasitələri *səhv* göstərilib və ya *tam* göstərilməmişdir?**

| | | |
|---|---|---|
| A) | Dağlar elsiz, çöl tütəksiz, çəmən lal,<br>Mən bu dərdi oxlamağa gəlmişəm. | yalnız təşbeh |
| B) | Sətirlərə bənzər səf-səf budaqda<br>Hər yarpaq bir yaşıl alovlu kəlmə! | epitet, təşbeh |
| C) | Düzdə çay olmuşam, göydə də şimşək<br>Mənim sürətimə çatmamış külək. | təşbeh, mübaliğə, inversiya |
| D) | Şaxta olur, mən baharı anıram,<br>Açılası güllər düşür yadıma. | antiteza, inversiya |

| | | |
|---|---|---|
| E) | Bəm xalların fəryadını<br>Zildən soruş! | metafor,<br>təzad |

**30. Hansı bənddə verilmiş sözlərin yerini dəyişsək, leksik izahlarla bağlı uyğunsuzluq aradan qalxar?**

| | | | |
|---|---|---|---|
| A) | **Obelisk**<br>Yuxarıya doğru getdikcə nazikləşən, yonulmuş daş sütundan ibarət abidə | ⇆ | **Perqament**<br>Kağız icad olunana qədər üzərində yazı yazmaq üçün istifadə olunan heyvan dərisi |
| B) | **Təşəxxüs**<br>Lovğalıq, təkəbbür | ⇆ | **Yeknəsəq**<br>Eyni ilə bir-birinə oxşayan, eyni tərzdə, eyni şəkildə olan |
| C) | **Qravüra**<br>Hər hansı bir bərk materialın hamar üzündə qazılmış və ya aşındırılmış şəkil. | ⇆ | **Aşqar**<br>Müəyyən məqsədlə bir şeyə əlavə edilən, qatılan başqa maddə |
| D) | **Təşrih**<br>Bitişdirmə, birləşdirilmə, qatılma; əlavə etmə, qoşulma | ⇆ | **İlhaq**<br>Bədəni müəyyən üsulla kəsib əməliyyat aparma |
| E) | **Kapitulyasiya**<br>Döyüşən tərəflərdən birinin öz müqavimətini dayandıraraq rəqibin şərtlərini qeyd-şərtsiz qəbul etməsi | ⇆ | **Stereotip**<br>Uzunmüddətli sosial-tarixi təcrübə nəticəsində şüurlarda kök salmış, qəlibləşmiş qavrayış standartı |